## Yeni ünvan lövhələri təsdiq ediləcək

*Müasir ünvan lövhələri bir sıra fəaliyyət istiqamətlərində işlərin asanlaşmasına şərait yaradacaq*

Ünvanların müəyyən edilməsi ölkə vətəndaşlarının, dövlət təşkilatlarının, eləcə də biznes qurumlarının gündəlik fəaliyyətində mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Bununla yanaşı, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən ünvanların yeni qaydalarla verilməsi respublikanın şəhər və rayonlarında küçə və prospektlərə estetik və memarlıq baxımından da yeni bir görkəm verəcək.

Azərbaycan Respublikası Prezidenti 10 fevral 2012-ci il tarixdə ölkədə ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi qaydalarında dəyişikliklər edilməsi barədə fərman imzalamışdır. Fərmanın icrası ilə bağlı mövcud ünvan sistemi hərtərəfli təhlil edilmiş, beynəlxalq layihələr çərçivəsində xarici ölkələrin qabaqcıl təcrübələri öyrənilmişdir. Əmlak Məsələləri Dövlət Komitəsindən verilən məlumatda bildirilir ki, ölkədə ünvanvermə işinin mövcud vəziyyətinin təhlili, habelə beynəlxalq təcrübənin öyrənilməsi nəticəsində sürətli inkişaf mərhələsini yaşayan ölkəmizdə Avropanın təcrübəsi də nəzərə alınmaqla ünvanvermə qaydalarında yeni yanaşmaların tətbiqi məqsədəuyğun sayılmışdır. «Yeni qaydalar Avropa Şurasının Avropada ünvan məlumatları infrastrukturu və Avropa məkan məlumatları infrastrukturuna dair tövsiyə və direktivlərinə əsaslanır ki, əksər ölkələr bu sistemə keçməkdədirlər. ƏMDK və Norveç Kadastr Təşkilatı tərəfindən Norveç Hökumətinin ayırdığı qrant hesabına Yeni Ünvan Reyestri İnformasiya Sisteminin texniki spesifikasiyalarını hazırlamaq üçün beynəlxalq məsləhətçi cəlb edilmişdir. Ən müasir yanaşma və tələblər əsasında sistemin texniki əsaslandırılması və standart tələbləri hazırlanmışdır. Bu əsasda bilavasitə sistemin hazırlanması məqsədilə təcrübəli şirkətin seçilməsi üçün açıq tender keçirilmiş və tenderdə Cənubi Koreyanın SK C&C şirkəti qalib olmuşdur. Artıq sistemin hazırlanması işləri başa çatdırılmaq üzrədir və 2013-cü ildən istifadəyə veriləcəkdir», - məlumatda belə deyilir.

Komitədən bildirilir ki, binaların giriş konsepsiyasına əsaslanan yeni ünvanvermə qaydalarının qüvvəyə minəcəyi ilə əlaqədar ƏMDK tərəfindən hazırlıq işləri aparılır. Şəhər və rayonlarımızda ünvan sahəsində problemlərin bir hissəsi küçə və prospektlərin adsız olması və ya əvvəlki dövrlərdə verilmiş küçə və prospekt adlarının dövrün tələblərinə uyğunlaşmaması ilə bağlıdır. Bu məqsədlə xüsusi işçi qruplar yaradılmış, onlara yeni ünvanvermə qaydaları ilə bağlı nəzəri və praktiki biliklərə dair təlimlər keçilmişdir.

ƏMDK-dan bildirildiyinə görə, küçə və prospektlərə vurulacaq ünvan lövhələrinin dizaynı hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilib. Bu məsələnin həllində şəhərlərimizin memarlıq üslubuna və ənənələrinə sadiqlik göstərməklə, ünvan lövhələrinin müasir dizaynı müəyyənləşdirilmişdir. Nümunələr təsdiq edildikdən sonra müasir dizaynlı lövhələrin yaxın zamanlarda Cənubi Koreyada istehsalına və respublikaya gətirilməsinə başlanılacaq. Komitə həmin lövhələrin keyfiyyətinə və davamlılığına görə Avropa ölkələrindəki ünvan nişanlarından geri qalmayacağını, bəzi xüsusiyyətlərinə görə onları üstələyəcəyini bildirir.

Yeni ünvanvermə işləri, müasir dizaynlı ünvan lövhələrinin istehsalı və quraşdırılması dövlət orqanlarının, o cümlədən qeydiyyat, təcili yardım, poçt, yanğından mühafizə, tikinti və şəhərsalma, nəqliyyat və digər bu kimi fəaliyyət sahələrində qərar qəbulunun və işlərin asanlaşdırılmasına gətirib çıxaracaqdır.